| **Ağalar Vəliyev** | |
|---|---|
| Ağalar İsrəfil oğlu Vəliyev | |
| **Azərbaycan Respublikası Milli Məclisinin deputatı** | |
| **Şəxsi məlumatlar** | |
| **Təhsili** | Azərbaycan Memarlıq və İnşaat Universiteti |
| **İxtisası** | Mühəndis |
| **Doğum tarixi** | 23 iyul 1957 (64 yaş) |
| **Doğum yeri** | Yevlax, Yevlax rayonu, Azərbaycan SSR, SSRİ |
| **Təltifləri** | |

**Ağalar İsrəfil oğlu Vəliyev** (23 iyul 1957, Yevlax) — Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatı.

**Həyatı**

Ağalar Vəliyev 1957-ci il iyulun 23-də Yevlax şəhərində anadan olmuşdur. 1976-cı ildə Mingəçevir Politexnik Texnikumunu, 1989-cu ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. İxtisasca inşaat mühəndisidir.

Əmək fəaliyyətinə 1976-cı ildə Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinin Yevlax dəmir beton məmulatları zavodunda fəhləlikdən başlamışdır. Həmin zavodda laboratoriya mühəndisi, şöbə rəisi, baş mühəndis və direktor, 1986-cı ildən Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinin Dəmir Beton zavodunun direktoru, 1991-ci ildən Körpü tikinti kombinatının baş direktoru, 1993-cü ildən isə 2 saylı “Yoltəmirtikinti” trestinin rəisi, 1996-1998-ci illərdə isə “Azəraqrartikinti” Dövlət Şirkətinin prezidenti vəzifələrində çalışmışdır.

“Azəraqrartikinti” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür. 2010-cu ildə "Əməkdar mühəndisi" fəxri adına layiq görülmüş, 2012-ci ildə isə “Şöhrət” ordeni ilə, 2017- ci ildə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. Ailəlidir, bir oğlu var.